# Daha iki kəndə təbii qaz verildi

Noyabr ayının 25-ni Tüntül və Yengicə kəndlərinin sakinləri yüksək sevinc içərisində yaşadılar. Həmin gün Tüntül kənd tam orta məktəbinin həyətinə yüzlərlə sakin toplaşmışdı. Burada hər iki kəndə təbii qazın verilməsinə həsr olunmuş açılış mərasimi keçirilirdi.



Tüntül kəndinə 56.712 paqonmetr müxtəlif ölçülü daşıyıcı və paylayıcı qaz kəməri çəkilmiş, 685 sayğac və fərdi tənzimləyici quraşdırılmışdır. Yengicə kəndinə isə bu göstricilər müvafiq surətdə 12.874 və 128 olmuşdur.

Mərasimdə rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev, Ağsu Regional Qaz İstismarı İdarəsinin rəisi Eldar Səlimzadə, digər rəsmi şəxslər, kəndlərin sakinləri, ziyalılar iştirak edirdilər.

Toplantını giriş sözü ilə rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev açdı. O iştirakçıları salamlayaraq qeyd etdi ki, ölkə başçısı İlham Əliyev cənablarının sərəncamlarında və təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramlarında rayon mərkəzlərinin, qəsəbə və kəndlərin qazlaşdırılması qarşıya qoyulmuş əsas vəzifələrdən biridir. Bu vəzifənin icrası Qəbələdə uğurla davam etdirilir. Bu gün buraya Tüntül və Yengicə kəndlərinə təbii qaz verilməsi mərasiminə toplaşmışıq. Mən əvvəlcə MM üzvü, respublika Ağsaqqallar Şurasının sədri Fəttah Heydərovun və rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayevin təbriklərini və salamlarını sizlərə çatdırıram. Hamınızı bu bayram, bu gözəl gün, əlamətdar hadisə münasibətilə təbrik edirəm. Bu işlərdə bizə kömək edənlərin hər birinə, xüsusilə Dövlət Neft Şirkətinin rəhbərliyinə minnətdarlıq edirəm.

Daha sonra çıxış edən Ağsu Regional Qaz İstismar İdarəsinin rəisi Eldar Səlimzadə bildirdi ki, əsası ulu öndərimiz Heydər Əliyev tərəfindən qoyulan neft və qaz strategiyası bu gün hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Qəbələdə və respublikamızın digər bölgələrində də qazlaşma sürətlə aparılır. Bu gün Qəbələ rayonunun daha 2 yaşayış məntəqəsinə təbii qaz verilir. Hazırda rayonun Bum, Qəmərvan, Nic, Həmzəli, Mirzəbəyli və Corlu kəndlərinə də qaz çəkilişi işi sürətlə davam edir. Mən hamınızı bu gün münasibətilə «Azəriqaz» istehsalat birliyinin rəhbərliyi və öz adımdan təbrik edirəm.



*Fotolar İlkin Vəlizadənindir.*

Kənd sakinləri, o cümlədən ağsaqqallar, ziyalılar adından çıxış edən Telman Abduxalıqov, Füzuli Mehdiyev, Oqtay Babayev bildirdilər ki, bu tədbir ən yadda qalan hadisədir. Biz uzun illər idi ki, odun yanacağından istifadə edirdik. Çox zəhmət çəkirdik. Bu gün dünyada müharibələr gedir, qan tökülür. Ölkəmizdə isə sakitlikdir, sabitlikdir. Ucqar kəndlərə qaz çəkilir, açılışlar edilir. Biz bu gün üçün ölkə başçımız İlham Əliyevə, hörmətli ağsaqqalımız Fəttah Heydərova rayon rəhbərliyinə minnətdarlıq edirik.

Daha sonra rəsmi açılış üçün dayağa buraxılan qazı rayon icra hakimiyyəti başçısının müavini Arif Allahverdiyev və Ağsu Regional Qaz İstismarı İdarəsinin rəisi Eldar Səlimzadə alovlandırdılar. Mərasimə toplaşanlar alovlanan məşəli yüksək əhval-ruhiyyə altında sürəkli alqışlarla qarşıladılar.

Sonda qonaqlar Tüntül kənd sakini Radil Quliyevin evində mavi alovun yandırılmasında iştirak etdilər və bu ailəyə xoş güzəran, uğurlu və firavan həyat arzuladılar.

**Oqtay MƏMMƏDOV.**

# Bütün türk dünyasının möhtəşəm lideri

Xalqımızın sevimli və qeyrətli oğlu Heydər Əliyev böyük və çoxmənalı ömür yolu keçmişdir. Məlum olduğu kimi o, ilk azərbaycanlı olaraq sovet məkanında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə qədər yüksəlmiş, Sov. İKP. MK Siyasi Bürosunun üzvü olmuşdur.

Heydər Əliyev respublikamızda Dövlət Təhlükəsizlik Komitəsində (DTK) işləyərkən bu orqanda ilk azərbaycanlı general idi. O vaxtı qabaqlamış, 60 ilə yaxın əmək fəaliyyəti dövründə demək olar ki, bir neçə 100 illik ömrə bərabər mənalı ömür yolu keçmişdir.

Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi dövründə Azərbaycanın adı 1970-ci illərdən başlayaraq SSRİ miqyasında, 1975—1977-ci illərdə isə dünyada tanınmağa başladı. Onun həyata keçirdiyi tədbirlər artıq Azərbaycana sığmırdı. O, Azərbaycanda və SSRİ-də ittifaq əhəmiyyətli tədbirlər görür və onu həyata keçirirdi. Onun həyatının Moskva dövru ölkə miqyasında xalqımıza başucalığı gətirmişdi.

Heydər Əliyevin 1993-cü ilin iyununda ikinci dəfə respublika rəhbərliyinə qayıdışı ilə Azərbaycanının xilası, müstəqilliyimizin möhkəmləndirilməsi reallaşdı. Ölkənin parçalanmasının qarşısı alındı. O, fəaliyyətə başladığı andan ölkə daxilində yaranmış bir çox problemləri həll etməyə başladı. Xarici dövlətlərlə- Avropa dövlətləri, xüsusən Türkiyə, İran və bütün müsəlman dövlətləri ilə diplomatik əlaqələr yaratmağın çox vacib olduğunu ciddi şəkildə qarşıya qoydu.

Müdrik rəhbərin uzaqgörənliyi, siyasi durumu, şəraiti düzgün qiymətləndirmə bacarığı ümumi gücün əsas məqsədə yönəldilməsini təmin edən başlıca amil idi. O, Qarabağ probleminin həllini sülh problemində gördü. Atəşkəs əldə etməklə dövlət quruculuğu, silahlı qüvvələrin təşkili üçün vaxt qazandı.

1996-cı ilin dekabr ayının sonunda keçirilən Lissabon sammitindəki uğur Heydər Əliyevin uzaqgörən, həm də ədalətli siyasətinin zirvəsi, erməni ekstremistlərinin son 2—3 əsr ərzində apardıqları siyasətin kökünə vurulan ən tutarlı zərbəsi idi. O, sözün Heydər qüdrəti ilə əzəmətli bir «siyasət qalası» olduğunu nümayiş etdirdi.

Vətənin vəzifəsiz, müdrik ağsaqqalı Heydər Əliyevin məlum «20 Yanvar faciəsi»nin səhəri günü öz ailə üzvləri ilə birlİkdə Moskvada Azərbaycanın daimi nümayəndəliyinə gələrək orada müsahibə verməsi, əlləri xalqımızın qanına bulaşmış Mixail Qorbaçova öz nifrət hissini bildirməsi onun Azərbaycanın ən böyük vətənpərvəri, insanlığın fövqündə duran azərbaycanlısı olmasının bariz nümunəsi idi.

Ulu öndər Heydər Əliyevin natiqliyi ağlasığmaz dərəcədə rəvan idi. Onun 1994-cü il oktyabrın 4-də gecəyarı respublika televiziyası ilə «Dövlətimiz təhlükə qarşısındadır, demokratiya quldurlardan qorunmalıdır» sözləri yüz minlərlə insanı dərhal Prezident iqamətgahının qarşısına topladı. Toplantı qarşısında xalqın içərisində ulu öndər bəyan etdi ki, mən sizi qoyub heç yana getməyəcəm. Burada ölsəm də şəhid olaram»

Ulu öndər Heydər Əliyev həmin gecə böyük Nəsimi, dahi Babək zirvəsinə yüksəldi. Xalq öz sinəsini, toptüfəngin, BTR-lərin qarşısına verməklə həmin gecə min bir qurbanlar hesabına yaranmış müstəqil dövləti qorudu. Bu böyük selin qarşısında qara qüvvələr dayana bilmədi. Müdriklərimiz demişlər ki, «Dahi elə bir möhtəşəm dayaqdır ki, nə göyləri talan edən ildırımdan qorxur, nə dünyanı lərzəyə salan qasırgalardan, nə də ölümdən». Ulu öndər məhz belə dahilərdən idi.

Heydər Əliyev fenomeni bütün maneələri dəf edərək inadkarlıqla «Əsrin müqaviləsi» adlanan neft strategiyasını həyata keçirməyə nail oldu.

**(Ardı 3-cü səhifədə).**